*Məlahət Qaramuradlı*
***Xocalıdan gəlirəm***

Ürəyim buz bağlayıb
Əllərim donur, bala!
Vəsiyyət yazasıyam
Bir hovur «ho» vur bala!

Gəlirəm Xocalıdan
Bu qışın oğlan çağı
Ərliyə zəfər çalıb
Dünənki qorxaq yağı.

Döyüşə durmadım heç
Sinəmi cəngə gərib
Üç tel yox ayırmağa,
« Üçtelli» durnam qərib.

Başında yağı durub
Hər durna qatarının.
Çaparı naldan qalıb,
Dördnala çaparımın.

Vəsiyyət yazasıyam,
Bir hovur «ho» vur bala!
Qalmasın qanım yerdə,
Əl götür, qov, vur bala!
Göyərir yağı külü
Göylərə sovur, bala!

***Qaramuradlı M.Y. Xocalıdan gəlirəm : şeir // Qaramuradlı M. Qədərində götür. - Bakı : Vektor Nəşlər Evi, 2007. - S.77.***